19.ULUSLARARASI TÜRK KÜLTÜRÜ, SANATI ve KÜLTÜREL MİRASI KORUMA SEMPOZYUMU/SANAT ETKİNLİKLERİ
19.İNTERNATİONAL TURKIS CULTURE, ART and PROTECTION of CULTURAL HERITAGE SYMPOSIUM/ART ACTIVITY 28-29 Nisan (Aprel) 2025/ Kuzey Kıbrıs

Azərbaycanda muzey sektorunun peşəkarlaşdırılması problemi muzeyşünaslığın inkişaf faktoru kimi

Açar sözlər: muzey, muzeyşünaslıq, elm, təhsil, mədəniyyət, peşəkarlıq

The professionalization problem of the museum sector in Azerbaijan as a development factor for museology

Key words: museum, museology, science, education, culture, professionalism

MƏLIKOVA Elfira Hacıbaba qızı[1]

ABSTRACT

National and international museum organizations are the main drivers of the formation of a professional museum community. At the same time, the emergence and development of such organizations can be considered as an indicator of the level of professionalism of the museum sector. In the conditions of modern globalization, when communication between representatives of science, education and culture at the national level is much easier, the role of international organizations that unite specialists from different countries and fields of activity is significantly increasing.

It is known that the main task of the State cultural system is not only the reliable collection, protection and delivery of national cultural treasures and examples of world culture to future generations. One of the important tasks is the wide promotion of national cultural treasures among the population. At the same time, the main task of the State cultural system is to actively assist in the upbringing of independent and creatively thinking citizens who are committed to the customs and traditions of the Azerbaijani people, who possess spiritual, cultural, national and human values. In order to get an idea of the culture of any country, it is first of all necessary to get

[1] Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Muzeyşünaslıq və turizm" kafedrasının dosenti, muzeyşünas alim.

acquainted with its historical, natural and geographical conditions, as well as the general situation in the spheres of public and individual life in that country.

Regarding the development of museology in Azerbaijan, which we have included in the study, we can say that today museums occupy an important place in the priorities of the state cultural policy of the Republic of Azerbaijan. Along with the development of other cultural areas, a radical modernization and reconstruction of the museum system is envisaged, aimed at informing society and thereby contributing to its further democratization and integration into the world community. From this point of view, the problem of professionalization of the Museum sector in Azerbaijan can be considered one of the urgent issues of our time as a factor in the development of museology.

Giriş. Məqalədə ilk növbədə muzey sektorunun peşəkarlaşdırılması probleminin əsas həlli yollarının müəyyən istiqamətləri təhlil edilir. Digər tərəfdən isi bir elm olaraq "muzeyşünaslığın" muzey yaradıcılığından asılılığı faktoru önə çəkilir. Xüsusi qeyd etmək lazımdır ki, Muzeyşünaslığın əsaslı şəkildə öyrənilməsi praktiki biliklərdən götürülən informasiyaların nəzəri məcmusuna əsaslanır.

XXI əsrin birinci on illiyində fəal muzey quruculuğunun başlanması, muzey şəbəkəsinin inkişafı-cəmiyyətin mütərəqqi inkişafının əsas amillərindən birinə çevrilmişdir. Bu gün muzeylərimiz maddi və mənəvi sənət incilərini, milli sərvətləri toplayan, öyrənən və təbliğ edən zəngin xəzinədir. Bu cəhətdən öz spesifik xüsusiyyətləri, zəngin fond, geniş təcrübəsi və fəaliyyət istiqamətləri ilə ictimaiyyətin rəğbətini qazanmış muzeylərin içərisində : Milli Azərbaycan Tarixi Muzeyi, Nizami Gəncəvi adına Azərbaycan ədəbiyyatı muzeyi, Milli Azərbaycan Dövlət İncəsənət muzeyi, Azərbaycan Xalçası və Xalq Tətbiqi sənəti Dövlət muzeyi və digər muzeylərimiz nümunə ola bilər.

Muzeyşünaslığın elmi-ictimai əhəmiyyətini nəzərə alaraq və muzeylərin fəakliyyətinin beynəlxalq miqyasda əlaqələndirilməsi məqsədilə 1977-ci il mayın 18-də Parisdə YUNESKO- nəzdində Beynəlxalq Muzeylər Şurası, 1992-ci il iyulunda isə İKOM-un Azərbaycan Milli Komitəsi yaradıldı.

Müasir qloballaşma şəraitində, elm, təhsil və mədəniyyət nümayəndələri arasında milli səviyyədə ünsiyyətin xeyli asanlaşdığı bir dövrdə, müxtəlif ölkələrdən olan mütəxəssisləri və fəaliyyət sahələrini birləşdirən beynəlxalq təşkilatların rolu əhəmiyyətli dərəcədə artır. Belə ki, Milli və beynəlxalq muzey təşkilatları ilə əlaqələrin möhkəmləndirilməsi, peşəkar muzey cəmiyyətinin formalaşdırılmasının əsas yönəlticisidir. Eyni zamanda belə təşkilatların yaranması və inkişafı muzey sektorunun peşəkarlığının səviyyəsinin göstəricisi kimi qəbul edilə bilər.

“Daim dəyişən dünya muzeylərə təsirini surətləndirir və bu Muzeyşünaslıq elminə böyük təzyiq prosesini reallaşdırır. Bir neçə aspektdən araşdırmaların aparılmasını tələb edən muzeyşünaslıq tədqiqatları bir sıra elmlərin əsası ilə tanış olaraq onları təhlil etmək kimi tələbi qarşıya qoyur. Məhz bu da muzeyşünaslıq sahısində araşdırma aparan tədqiqatçıların elmi biliklərinin məcmuəsinin ölçüsündən asılı vəziyyətdə qalır. Muzeyşünaslığın spesifikliyi məhz bundadır. Belə ki, mərhələli şəkildə müvafiq elmləri öyrənmək danılmaz problemə çevrilir. Son nəticədə belə qənaətə gəlmək olar ki, “həqiqi Muzeyşünaslığ”ın qavranılması çox mürəkkəb prosesin düzgün öyrənilməsi zamanı mümkündür. Bu prosesi mükəmməl məntiqlə idarə edən tədqiqatşılar tələb olunur” [Məlikova-Qurbanova E.; 2023, s.130].

Azərbaycan ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin milli-mədəni sərvət kimi qorunub saxlanmasında, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasında və mənəvi zənginləşməsində fəal tədqiqat işləri aparan, nadir sənət incilərini qoruyub saxlayan muzeylər, onun bütün funksiyalarını icra etməklə yanaşı geniş bir şəbəkəyə malikdir.

Muzey işi çoxsahəli və çoxçalarlı bir fəaliyyətdir. Muzey isə yüksək peşəkarlıq, dəqiqlik. elmilik tələb edən bir sahədir. Muzeyşünaslıq - muzeylərin yaranmasl, muzey fəaliyyətinin elmi-tədqiqi, ictimai mərhələləri, nəzəri əsasları, metodu, qanunauyğunluqları və prinsiplərindən bəhs edən elmdir. Muzeyşünaslığın strukturu muzey işinin tarixindən. muzey işinin nəzəriyyəsindən, muzey mənbəşünaslığından və tətbiqi muzeyşünaslıqdan ibarətdir.

Yuxarıda göstərilən dörd elementin hər biri qarşılıqlı əlaqədə inkişaf edir və bir-birini şərtləndirir. Yəni, muzey işinin tarixini öyrənmək üçün nəzəri problemlər, ayrı-ayrı mənbələr və tətbiq prosesi tədqiqat üsullarından istifadənin nəticəsinin muzeylərdə müzakirəsi və tədbiq edilməsi çox vacib mərhələyə çevrilir. Eləcə də, nəzəri problemlərə sirayət edərkən, tarix və elmi mənbələrdə də tətbiqdən istifadə etmək vacibdir. Beləliklə muzeyşünaslığın tədqiqi kompleks xarakter daşıyır.

Məlumdur ki, Dövlət mədəniyyət sisteminin başlıca vəzifəsi təkcə milli mədəniyyət sərvətlərinin və dünya mədəniyyəti nümunələrinin etibarlı şəkildə toplanması, qorunması və gələcək nəsillərə çatdırılması ilə bitmir. Mühüm vəzifələrdən biri də milli mədəniyyət sərvətlərinin, əhali arasında geniş təbliğidir. Eyni zamanda Azərbaycan xalqının adət və ənənələrinə bağlı olan, mənəvi, mədəni, milli və bəşəri dəyərlərə yiyələnən, müstəqil və yaradıcı düşünən vətəndaşlar yetişdirilməsinə fəal yardım etmək də Dövlət mədəniyyət sisteminin başlıca vəzifəsidir. Hər hansı ölkənin mədəniyyəti haqqında təsəvvür əldə etmək üçün ilk növbədə onun tarixi, təbii-coğrafi şəraiti ilə, eləcə də həmin ölkədə ictimai və fərdi həyat sahələrində ümumi vəziyyətlə tanış olmaq lazımdır. Azərbaycan mədəniyyətinin inkişaf perspektivlərini müəyyən etməyə çalışarkən sivil dünyanın mədəni təcrübəsi ilə yanaşı, mədəniyyətimizin yaxın keçmişdəki vəziyyətini təhlil etməyə

ehtiyac var.

Muzeylər tarixi məkan olmaqla bərabər həm də mədəniyyət müəssisələridir. Mədəniyyət sistemi – mədəni sərvətlərdən, bu sərvətlərin və milli mədəniyyətin inkişafı, müdafiəsi, təbliği və artırılması ilə məşğul olan mədəniyyət müəssisələri şəbəkələrindən, mədəniyyəti idarə edən orqanlardan, mədəniyyət müəssisələrinin maddi-texnili bazasının möhkəmləndirilməsi ilə məşğul olan digər dövlət mədəniyyət təsisatlarından ibarətdir. Dövlət mədəniyyət sisteminin əsaslarından sayılan və aparıcı mövqeyə malik olan muzey müəssisələri bədii, tarix və tarix-diyarşünaslıq. ədəbiyyat, teatr və musiqi profilli, memorial, xatirə muzeylərindən, muzey-qoruqlardan ibarətdir. Muzeylər, əsasən tədqiqi, elmi-maarifçi və kütləvi xarakter daşıyır, elmi-tədqiqat institutlarının nəzdində isə tədqiqat, həmçinin tədris tipli olur. Mədəniyyət fəaliyyətinin tərkib hissəsi sayılan muzey fəaliyyəti – elmi, mədəni-mənəvi və estetik tələbatın ödənilməsi məqsədilə insan, onun fəaliyyəti və yaşayış mühiti haqqında mədəniyyət sərvətlərinin və maddi nümunələrin əldə edilməsi, qorunması, qeydə alınması, tədqiqi, təbliği və nümayişi hesab olunur. Muzey işinin xüsusiyyəti elədir ki, ümumi fəaliyyəti ziddiyyətsiz keçmir.Belə ziddiyyətləri doğuran səbəblərin aşkarlanması, öyrənilməsi, elmi şəkildə qiymətləndirilməsinin müsbət həlli muzey fəaliyyətinin nizamlanması, inkişafı üçün stimuldur. Muzey fəaliyyətinə təsir göstərən ziddiyyətləri zahiri və daxili olmaqla iki qrupa ayırmaq olar. Beləliklə, muzey fəaliyyətinə mühit amilləri vasitəsilə nüfuz edən və bu prosesdə həlli mümkün olan uyğunsuzluqlara zahiriu ziddiyyətlər hesab edilə bilər. Müxtəlif yaş qrupuna mənsub şəxslərlə əhatə olunan muzey mühiti-eksponat, ekspozisiya, yaradıcı müəllif, bələdçi, məlumat vasitəsi arasında mühitdə eksponat vasitəsi ilə əks olunan müvafiq tarixi dövr, təəssüratın nəticəsi olan yeni fikir, rəhbərliklə işçilər, əməkdaşlar, müvafiq komissiyaların üzvləri arasındakı və s. uyğunsuzluqlar daxili ziddiyyətlərə misal ola bilər. Muzey fəaliyyəti vasitəsilə aparılan tərbiyəvi təsirin optimal quruluşunu, tərbiyəvi işlərin məzmunu, üsul, vasitə, forma və metodları müəyyənləşdirməkdə başlıca tələblər - prinsiplər həlledici rol oynayır. Muzey təcrübəsində daha çox istinad olunan prinsiplər bunlardır: məqsədyönlülük, elmilik, həyat, quruculuq işləri ilə əlaqəlilik, yaşa uyğunluq, fərdi xüsusiyyətlərin nəzərə alınması, yaradıcı tələblərdə vahidlik, nəzəri biliklərlə təcrübi fəaliyyətin əməli birliyi, əyanilik, ardıcıllıq və sistemlilik, yaradıcılıq vasitəsi ilə tərbiyə, muzey kollektivinin təsiri. Bu prinsiplərin hər biri nəcib keyfiyyətlərin, hərəkət və davranış normalarının formalaşdırılmasına xidmət göstərir, insanın mənəvi yüksəlişini, yaradıcılıq qabiliyyətini, marağını, arzusunu, meylini təmin edir. Məhz hərtərəfli bilik və bacarığa malik muzey işçisinin məharəti, təsiri nəticəsində konkret zaman, məkan və şərait daxilində optimal vəhdət və variantlar tapılıb tətbiq edilir və səmərəli fəaliyyət öz müsbət nəticələrini verir.

"Muzeylərin mədəni-maarif və elmi-tədqiqat müəssisləri kimi fəaliyyət funksiyaları haqqında aparılan elmi təhlillər "muzeyşünaslıq" elminin əsasını

qoydu" [Məlikova-Qurbanova E.: 2019, s. 4]. "Muzeyşünaslıq elminin inkişafı muzey fəaliyyətindən çox asılıdır. Muzey tarixi göstərir ki, muzeylərdə elmi potensiala malik olan yüksək səviyyəli əməkdaşlar çalışmalıdır. Çünki, muzeyin əsas təbliğatı elmi tədqiqat işindən keçir." [Məlikova-Qurbanova E.; 2020, s. 23].

Muzey fəaliyyəti tarixi-bədii sənətkarlıq nümunələrinin eksponatlaşdırılması, ekspozisiyanın təşkili,müxtəlif mövzularda sərgilərin və digər muzey tədbirlərinin tamaşaçıların ixtiyarına verilməsi kimi ardıcıl şəkildə həyata keçirilən mərhələlərlə xarakterizə edilir.

Muzey, müasir elmi informasiya mərkəzi kimi əməkdaşlarından təkcə hərtərəfli biliklərə yiyələnmək bacarığını tələb etmir, eyni zamanda öz səlahiyyətlərini idarə edə biləcək işçi qrupunun formalaşması məqsədini güdür. Muzey fəaliyyəti prosesində tətbiqi elementlər və ünsürlər arasındakı qarşılıqlı və hərtərəfli izahı müvafiq qanunauyğunluqlar döğurur. Muzey fəaliyyətinin davamı və səmərəli nəyicələr verməsiüçün fəaliyyət elementləri və ünsürləri arasındakı qarşılıqlı əlaqə və asılılıqların öyrənilməsi, tədqiqi böyük əhəmiyyət kəsb edir. Müvafiq qanunaiyğunluqlar məhz muzey fəalıiyyətinin ünsürləri arasındakı qarşılıqlı əlaqə və asılılıqjarda təzahür edir. Muzey fəaliyyətinin ünsürləri arasındakı qarşılıqlı əlaqələr müxtəlif olduğu kimi, hər ünsürün özünə müvafiq xüsusiyyəti və digər ünsürün xüsusiyyətinə xas ümumi əlaqələr mövcuddur. Muzey fəaliyyəti prosesndə qarşılıqlı əlaqədə olan əsas ünsürlərin aşağıdakı anlamı daha məqsədyönlüdür:

1) Muzey fəaliyyətinin əhatə olunduğu mühitdən və şəraitdən asılılığı;

2) Muzey mühitində yaradıcı ilə tamaşaçı arasında qarşılıqlı əlaqə;

3) Muzey fəaliyyəti vasitəsi ilə elmi idrakla yaradıcı idrak arasındakı ziddiyyətlərin aradan qaldırılması;

4) Muzey fəaliyyətində mövcud metod. forma və yolların əlaqəsi;

5) Muzey fəaliyyətinin elmi və bədii yaradıcılıqlardan asılılığı.

Muzey kommunikasiyalarının mühüm elementlərindən biri onun mədəni-maarif fəaliyyəti prosesi zamanı şəxsiyyətin formalaşması və mənəvi estetik tərbiyəsi məqsədlərini güdür. amauzey kommunikasiyasının müxtəlif formalarından əsasən daimi "ekspozisiya" və müvəqqəti "sərgilərdən" istifadə etmək yolu ilə muzeylər əhalinin ayrı-ayrı sosial yaş və professional kateqoriyalarına təsir etmiş olur. Muzey fəaliyyətinin bu sahəsi digər sahələrdə, mədəniyyət və təhsil müəssisələrinin ümumi fəaliyyəti ilə qarşılıqlı təhliol olunmalıdır. Kompleks münasibət tərbiyə və maarif fəaliyyətinin məqsəd və vəzifələrinin elmi baxımından dərk edilməsinə, bu fəaliyyətin qarşılıqlı və əlaqəli xarakterinin təmin olunmasına kömək edir.

Mədəni-maarif fəaliyyəti həyata keçirilərkən muzeylərdə müasir pedaqogikanın ümumi prinsiplərinə istinad edilir. Lakin bu işdə onların özünəməxsus prinsipləri də mövcuddur. Məsələn, tarix profilli muzeylərin potensialının spesifikliyi tarixi sənədlərin və xalqın tarixinin konkret dövrünü əks etdirən əşyalardan istifadə edilməsindən ibarətdir. Buna misal olaraq Milli Azərbaycan Tarixi Muzeyinin 2024-cü ildə gördüyü elmi ekspozisiya,

elmi tədqiqat, fond və maarifləndirmə işlərinin hesabatına nəzər saldıqda görürük ki, bu muzeyin böyük əməyi və milli muzeyşünaslığa verdiyi tövhələr əvəzedilmə və möhtəşəmdir. Hesabatda yazılar: "Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan olunması haqqında" sərəncamı ilə əlaqədar olaraq Milli Azərbaycan Tarixi Muzeyində bir sıra sıra işlər görülüb. Qlobal iqlim dəyişikliyi ilə mübarizə üzrə dünyanın ən böyük tədbirlərindən biri olan COP29 çərçivəsində Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyasından 17 ədəd arxeoloji və etnoqrafik eksponat noyabrın 1-dən 24-dək Bakı Olimpiya Stadionunun "Mavi" zonasında nümayiş etdiriliv, tədbirdə iştirak edən əcnəbi və yerli qonaqların böyük marağına səbəb olub. Noyabrın 18-i. 20-si və 21-i xarici ölkələrin mediya nümayəndələri üçün muzeydə infoturlar təşkil olunmuşdur. Ümumilikdə COP29 çərçivəsində Milli Azərbaycan Tarixi Muzeyinin daimi ekspozisiyasını 700-dən çox xarici qonaq ziyarət etmişdir. Tədbirlər çərçivəsində müxtəlif ustad dərslər, viktorina və oyunlar, "Güllərin söhbəti" adlı tədbir-konsert də təşkil edilib. Bundan əlavə aprelin 6-da muzey əməkdaşları H.Z.Tağıyev adına 123 №-li tam orta məktəbdə ağacəkmə aksiyası keçirmişlər (icraçı: İnnovasiyalar və təhsil proqramları şöbəsi). Azərbaycan Respublikası Prezidentinin "Məhəmməd Əmin Rəsulzadənin 140 illiyinin qeyd edilməsi haqqında" sərəncamının icrası çərçivəsində yanvarın 30-da muzeydə "M.Ə.Rəsulzadə-140" adlı elmi seminar və s. keçirilmişdir. Azərbaycan Respublikası Prezidentinin "Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinin qeyd edilməsi haqqında" sərəncamının icrası çərçivəsində tarix üzrə fəlsəfə doktorları: Əli Fərhadov, Aygün Məmmədova və Sənubər Qasımova məruzələrlə çıxış etmişlər." [Milli Azərbaycan Tarixi Muzeyi. Hesabat. 2024, s.247-249]. Bundan əlavə hesabatda muzeyin 2014-cü ildə "Elmi tədqiqat işləri planlarının yerinə yetirilməsi haqqında məlumat", "Beynəlxalq əlaqələr", "Nəşriyyat fəaliyyəti, elmi məqalələr", "Muzey əməkdaşlarının iştitak etdiyi elmi forumlar", "Muzeydə keçirilmiş sərgilər, konfranslar, seminarlar", "Kadr hazırlığı", "Elmi-təşkilati fəaliyyət", "Təltiflər və mükafatlar haqqında məlumat" bölmələrində verilən məlumatlar Milli muzeyşünaslığın inkişafında Milli Azərbaycan Tarixi muzeyinin peşəkar fəaliyyəti bir nümunə kimi verilə bilər. Muzeyin direktoru, Akademik Nailə Vəlixanlının rəhbərliyi ilə həyata keçirilən bütün tədbirlər çox ciddi şəkildə nizamlanaraq fundamentallıq daşıyır.

"Muzeyşünaslığın dörd struktur elementi: muzey tarixi, muzey nəzəriyyəsi, muzey mənbəşünaslığını və tətbiqi muzeyşünaslığı özündə ehtiva edi. Demək muzeylər muzeyşünaslığın özəyini və mənbəyini təşkil edir.

Muzeyşünaslıq tarix elminin tərkib hissəsidir. Lakin, bir sıra elmlərlə o cümlədən, sənətşünaslıq, pedaqogika, psixologiya elmləri ilə bağlı olan muzeylərin məhz bu istiqamətdə apardığı iş prosesi muzeyşünaslıq qarşısında daha geniş mövzuların praktiki olaraq öyrənilməsi üçün əsas şərtə çevrilir. Bu

qlobal problemlərdən biri idi. Məhz ona görə də bu gün muzey fəaliyyətini öyrənən müxtəlif elm sahibləri öz tədqiqatlarını azad şəkildə həyata keçirə bilir. Bu reallıq Muzeyşünaslar qarşısında kompleks tədqiqatların aparılmasını tələb edir." [Məlikova-Qurbanova E., 2023, s.129]. Lakin əldə etdiklərimiz ilə kifayətlənməməliyik. Hər zamanın, hər dövrün öz tələbi, öz töhfələri var və mədəniyyət axarında yeni-yeni nailiyyətlərə nail olmaq üçün çox iş görməliyik. Ətrafda baş verən hadisələri, yeni kəşfləri, prosesləri dərk etmək üçün onunla ayaqlaşmalıyıq.

Muzeyşünaslığa dair ədəbiyyatlarda muzeylərin funksional fəaliyyəti müxtəlif cür ifadə edilir. Tədqiqata cəlb etdiyimiz Azərbaycanda muzey sektorunun peşəkarlaşdırılması problemi muzeyşünaslığın inkişaf faktoru kimi möhtəşəm anlayış ilə bağlı deyə bilərik ki, bu gün Azərbaycan Respublikasının dövlət mədəniyyət siyasətinin prioritetlərində muzeylər mühüm yer tutur. Digər mədəniyyət sahələrinin inkişafı ilə yanaşı, cəmiyyətin məlumatlandırılmasına yönəldilən və bununla da daha da demokratikləşməsinə, həm də dünya birliyinə inteqrasiya edilməsinə rəvac verən muzey sisteminin köklü şəkildə modernləşdirilməsi və yenidən qurulması nəzərdə tutulur. Bu baxımdan Azərbaycanda Muzey sektorunun peşəkarlaşdırılması problemi muzeyşünaslığın inkişaf faktoru kimi dövrümüzün aktual məsələlərindən biri sayıla bilər.

İstifadə edilmiş ədəbiyyat:

1. Məlikova-Qurbanova E. (2019). Muzeyşünaslığın nəzəri və təcrübi biliklərinin muzey vasitəsi ilə inkişafı. Bakı: 108 s.

2. Məlikova-Qurbanova E. (2020). Muzey mənbəşünaslığı: tədqiqatlar və faktlar. Mədəniyyət dünyası, elmi-nəzəri məcmuə, XXXVIII buraxılış, Bakı: Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, 252 s.

3.Milli Azərbaycan Tarixi Muzeyi - 2024. Bakı, "Aspoliqraf", 2024, 259 səh.

4. Məlikova-Qurbanova E. "Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində Muzeyşünaslıq ixtisasının tarixinə dair" s.127-131. Azərbaycan sənətşünaslığı Şərq-Qərb dialoqu kontekstində (Bakı şəhəri. 17 noyabr 2023-cü il): ((Azərbaycan Dövlət və Mədəniyyət Universitetinin 100 illik yubileyinə həsr olunur): (beynəlxalq elmi - praktiki konfransının materialları) (məqalələr toplusu)) red. Heyəti: S.Namazova, Ü.Rzayeva, S.Məmmədova, S.Abbaszadə; Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti - Bakı: ADMİU, 2023.- 438 səh.